İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün, çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün, həyat səhifələrimizi parlaq imza sahiblərinin qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: ____________________

Oxu tarixi: ____________________

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

# QÜRUR VƏ QƏRƏZ

CEYN OSTİN

İngilis dilindən tərcümə:

Anar Mahmudov

parlaq
İMZALAR

| | |
|---|---|
| Baş redaktor: | Toğrul MUSAYEV |
| Redaktor: | Toğrul MUSAYEV |
| Korrektor: | Turac ELDARQIZI |
| Tərtibatçı: | Zülfi XƏLİLOV |
| Art-direktor: | Ramin HƏSƏNƏLİZADƏ |
| Cildin dizayneri: | Bayram QAFAROV |

**Jane Austen**
**PRIDE AND PREJUDICE**

**Ceyn Ostin**
**QÜRUR VƏ QƏRƏZ**

Bakı, “Parlaq İmzalar” Nəşriyyatı – 2026, 440 səh. / IV nəşr

**© Jane Austen / 1813**
**© Parlaq İmzalar MMC / 2021**
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 106
Klassiklər seriyası | 15

ISBN 9952580 95-2
9 789952 580952

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

16+

Mətbəə: “AVE PRİNT” MMC
FEVRAL / 2026

**Ceyn Ostin** 1775-ci il dekabrın 16-da İngiltərənin Həmpşir qraflığının Stiventon qəsəbəsində anadan olub. Ceyn səkkizuşaqlı ailənin ikinci qızı idi. Ən yaxın dostu, rəfiqəsi böyük bacısı Kassandra olub. Yazıçı 1785-1786-cı illərdə "Ridinq" abbatlığında təhsil alıb. Həm Kassandra, həm də Ceyn evdə rəsm çəkməyi və pianoda ifa etməyi öyrəniblər.
Yazıçı ailə həyatı qurmasa da, romanları o dövr İngiltərəsinin ailə-məişət problemlərini, övladlarla valideynlər arasındakı ziddiyyətləri mükəmməl şəkildə əks etdirib. C. Ostinin əsas romanları bunlardır: "Düşüncə və hissiyyat" (1811), "Qürur və qərəz" (1813), "Mensfild parkı" (1814), "Emma" (1815). Ölümündən sonra yazıçının "Nortenger monastırı" romanı çap olunub.
İngilis ədəbiyyatının kraliçası sayılan Ceyn Ostin 1817-ci ildə dünyasını dəyişib. Yazıçı Vinçester qəbiristanlığında dəfn edilib.

**Anar Mahmudov** 1973-cü il martın 21-də anadan olub. M. Ə. Rəsulzadə adına ADU-nun Şərqşünaslıq fakültəsini bitirib. Kitablarla yanaşı, bir neçə bədii və sənədli filmi Azərbaycan dilinə çevirib.
Tərcümə etdiyi əsərlər arasında bu kitablar da var: "Təhrik" (Ceyn Ostin), "Yeni il nəğməsi" (Çarlz Dikkens), "Baskervillərin iti" (Artur Konan Doyl), "Ağdiş" (Cek London), "Keşiş evində qətl", "On üç müəmma" (Aqata Kristi), "Boyalı quş" (Yerji Koşinski), "Ququ yuvası üzərindən uçuş" (Ken Kizi), "İngilis pasiyent" (Maykl Ondatce), "Parıltı" (Stiven Kinq).

# Mündəricat

Birinci hissə ______ 9

İkinci hissə ______ 155

Üçüncü hissə ______ 273

# BİRİNCİ HİSSƏ

# I

Babat var-dövləti olan subay kişi evlənmək haqqında düşünür: bu, dünyada hamının qəbul etdiyi bir fikirdir.

Belə birisinin harasa gəlişi həmin yerdə yaşayan ailələrə elə lov salır ki, hamı onu öz qızının potensial şikarı kimi qəbul edir. Onun özünün evlənmək fikrinin olub-olmadığı isə onların eyninə də deyil.

– Əziz mister Bennet, – bir gün missis Bennet həyat yoldaşına dedi, – Nezerfild-park daha boş qalmayacaq, xəbərin var?

Mister Bennet cavab verdi ki, yox, xəbəri yoxdur.

– Hə, təzə kirəçi gəlir. Bayaq missis Lonq gəlmişdi, o dedi, – qadın dedi.

Mister Bennet cavab vermədi.

– Maraqlı deyil sənə, kimdi, nəçidi? – qadın səbirsizliklə qışqırdı.

– *Sən* demək istəyirsənsə, buyur, eşidirəm.

Qadına elə bu lazım idi.

– Missis Lonq deyir ki, Nezerfildə İngiltərənin şimalından varlı bir oğlan köçəcək. Bazar ertəsi günü dördatlı karetlə gəlib evə baxıb, elə xoşuna gəlib ki, mister

Morislə elə ordaca razılığa gəlib. Mikelmasa[1] qədər köçməlidi. Qulluqçularının bir hissəsi gələn həftənin axırı gələcək.

– Soyadı nədi?

– Binqli.

– Evlidi, ya subay?

– Subaydı, əzizim. Subaydı, özü də pulu aşıb-daşır. İllik qazancı dörd, ya beş min funtdu. Bizim qızlar üçün göydəndüşmə fürsətdi!

– Başa düşmədim. Qızlarımızın bura nə dəxli var?

– Əziz mister Bennet, – qadın dedi. – Ürəyimi üzmə. Mən istəyirəm ki, o adam bizim qızlardan birini alsın. Guya başa düşmürsən?

– Bura köçməkdə məqsədi odu?

– Məqsəd?! Nə məqsədbazlıqdı? Məqsədi bu deyil, sadəcə *ola bilər* ki, bizim qızlardan birinə vurulsun. Buna görə gələn kimi ona baş çəkməlisən.

– Məncə, mənim getməyimə ehtiyac yoxdu. Özün qızları götürüb gedərsən. Ya da qızları tək göndərərsən. İkincisi daha ağlabatandı. Çünki ola bilər, mister Binqli qızları qoyub sənin gözəlliyinə aşiq olsun.

– Yaxşı, bəsdi görək. Düzdü, əvvəllər qəşəng olmuşam, amma artıq yaş öz sözünü deyir. Həm də beş ərgən qızı olan qadına öz gözəlliyi haqqında fikirləşmək yaraşmaz.

– Beş ərgən qızı olan qadının heç gözəlliyi qalır ki, onun haqqında da fikirləşsin?!

---

[1] Mikelmas (və ya Mikayıl bayramı) – qərb xristianlarının bayramıdır. 29 sentyabra təsadüf edir. İngiltərədə həm də fəsil, rüb bölgüsü günü kimi məşhur olub. İl ərzində dörd belə gün olardı, ödənişləri, yeni işçilərin qəbul edilməsini, digər mühüm işləri adətən həmin dörd gündən birinə salmağa çalışardılar. – Tərc.

– Kəsəsi, mister Binqli gələn kimi sən gedib onunla görüşməlisən, əzizim.

– Yox, mənlik deyil.

– Qızlarını fikirləş. Çiyinlərinə səadət quşu qona bilər. Ser Vilyamla ledi Lukas gedəcəklər. Səncə, niyə? Əlbəttə ki, qızlarına gün ağlamaq üçün. Yoxsa ki, onların gözü uçurdu təzə qonşudan ötrü. Sən mütləq ora getməlisən. Çünki sən getməsən, biz də gedə bilməyəcəyik.

– Yox, sən məsələni çox şişirdirsən. Mister Binqli sizi mənsiz də görməyə çox şad olar. Lazım olsa, bir məktub yazıb sizinlə göndərərəm. Yazaram ki, qızlarımdan hansını istəsə, ona sidq-ürəklə verməyə hazıram. Elə bizim Lizzi haqqında bir-iki cümlə yazsam, bəsdi.

– Yox, nəbadə belə eləyəsən. Lizzi o biri qızlarımızdan heç də artıq deyil. Gözəllikdə Ceynə çatmaz, həlimlikdə, xasiyyətdə isə Lidiyaya. Amma sənin gözünün ağı-qarası bircə odu.

– Onların heç birini təriflməyə dəyməz, – kişi dedi. – O yaşda olan qızların çoxu kimi bizimkilər də yelbeyin, cahildilər. Sadəcə Lizzi bacılarına baxanda bir az da fərasətlidi, ağıllıdı.

– Mister Bennet, adam da doğma övladlarını bu cür təhqir eləyər? Yox, deyəsən, mənim əsəblərimlə oynamaqdan zövq alırsan.

– Səhvin var, əzizim. Mən sənin əsəblərinə böyük hörmətlə yanaşıram. Onlar mənim köhnə dostlarımdı. Azı iyirmi ildi ki, sən dayanmadan mənə onlardan danışırsan.

– Sən mənim necə əzab çəkdiyimi bilmirsən.

– Amma ümid eləyirəm, hələ çox yaşayacaqsan, illik qazancı dörd min funt olan centlmenlərin bizim tərəflərə köçməyini çox görəcəksən.

– Lap iyirmisi gəlsin – sən gedib onlarla görüşməyəndən sonra bizə nə faydası var?

– Yaxşı, qoy iyirmi olsunlar, mən birdəfəlik gedib hamısına baş çəkərəm.

Mister Bennetin təbiəti hazırcavablıq, kinayəli yumor, təmkin və şıltaqlığın elə qəribə qarışığından yoğrulmuşdu ki, arvadı bu 23 illik birgə ailə həyatı boyu onun xasiyyətindən baş aça bilməmişdi. Lakin *qadının* təbiətindən baş açmaq çətin deyildi. Dərin zəkadan, xüsusi savaddan xali, səbatsız bir tip idi. Narazı olanda özünü əsəbi kimi göstərməyi vardı. Həyatının yeganə məqsədi qızlarını ərə vermək, əsas təskinliyi və əyləncəsi isə qonaq getmək, dedi-qoduları dinləmək idi.

## II

İş elə gətirdi ki, mister Bennet mister Binqli ilə görüşən ilk adamlardan biri oldu. Əslində, lap əvvəldən belə bir fikri vardı, sadəcə həyat yoldaşını lap sonadək inandırmışdı ki, mister Binqli ilə görüşməyəcək. Arvadı isə bunu həmin görüş başa çatandan sonra bildi. Hadisə belə oldu: axşamçağı mister Bennet şlyapasını bəzəyən ikinci qızına baxıb dedi:

– Ümid eləyirəm, bu şlyapa mister Binqlinin xoşuna gələcək, Lizzi.

– Biz mister Binqlinin nəyi bəyənib, nəyi bəyənmədiyini onsuz da bilməyəcəyik, – qızın anası əsəbi halda dedi, – çünki onsuz da ona qonaq getməyəcəyik.

– Amma yaddan çıxarma, ana, – Elizabet dedi, – biz onu bal ziyafətlərində görə bilərik. Missis Lonq söz verib ki, bizi onunla tanışdıracaq.

– Heç inanmıram, missis Lonq bizə belə bir yaxşılıq eləsin. Onun özünün iki bacısı qızı var. Özü də çox eqoist, riyakar qadındı. Ondan heç gözüm su içmir.

– Elə mənim də, – mister Bennet dedi. – Nə yaxşı ki onun ümidinə qalmamısan.

Missis Bennet ərinin atmacasına cavab vermədi, amma hirsini qızının üstünə tökdü, onu danlamağa başladı:

– Sən də, Allah xatirinə, bəsdi öskürdün, Kitti! Əsəblərimlə oynama. Sinirlərimi didik-didik elədin.

– Kitti öskürəyinə heç fikir vermir, – atası dedi. – Yeri gəldi-gəlmədi, öskürür.

– Mən ki öz xoşuma, öz kefimdən öskürmürəm, – Kitti əsəbi tonla cavab verdi.

– Növbəti balınız nə vaxtdı, Lizzi?

– On beş gündən sonra.

– Aha, – qadın dedi. – Missis Lonq baldan bir gün qabaq gələcək. Deməli, bizi tanış eləməyi mümkün deyil, çünki ona qədər özü də mister Binqli ilə tanış olmayacaq.

– Onda sən onu qabaqlayarsan, əzizim. Özün onu rəfiqənlə tanış eləyərsən.

– Mümkün deyil, mister Bennet, mümkün deyil. Axı mən özüm onunla tanış deyiləm. Sən məni ələ salırsan?

– Sənin diqqətcilliyinə heyranam. Əlbəttə, bir adamı iki həftəyə tanımaq müşkül məsələdi. Amma onları biz tanış eləməsək, bir başqası tanış eləyəcək. Qoy missis Lonqla onun bacısı qızları da bəxtlərini sınasınlar. Onları tanış eləmək sənə xoş deyilsə, mən bu missiyanı öz üzərimə götürə bilərəm.

Qızlar heyrətlə atalarına baxdılar. Missis Bennet bircə bunu dedi:

– Boş-boş danışma.

– Sənin bu reaksiyanı heç başa düşə bilmədim, – mister Bennet arvadına dedi. – Sən təqdimetmə, tanışlıq qaydalarını cəfəngiyyat sayırsan? Mən bu məsələdə

səninlə razılaşmıram. Bəs sən nə fikirləşirsən, Meri? Bildiyimə görə, sən çox savadlı, zəkalı qızsan, çoxlu kitab oxuyursan, onlardan sitatlar seçirsən.

Meri deyilən iltifatlara layiq olmaq üçün bir cavab axtardı, amma tapa bilmədi.

– Meri fikrini cəmləyincə, – mister Bennet dedi, – biz mister Binqli məsələsinə qayıdaq.

– Boğaza yığıldım bu mister Binqli söhbətindən, – arvadı qışqırdı.

– Heç bilmirdim ondan bu qədər zəhlən gedir. Bəs niyə əvvəldən demirdin? Səhər bunu mənə desəydin, heç bu gün onunla görüşə getməzdim. Heç yaxşı olmadı. İndi sizin onunla tanış olmamağınız mümkün deyil, çünki mən artıq ora getmişəm.

Ledilər bunu eşidəndə şoka düşdülər. Əslində, mister Bennetin niyyəti də onların bu halını görmək idi. Ən çox heyrətlənən, əlbəttə, missis Bennet oldu. Amma xoş xəbərin həyəcanı keçən kimi dedi ki, o lap əvvəldən ərindən elə bunu gözləyirmiş.

– Sən nə qədər nəcib insansan, mister Bennet! Bilirdim ki, gec-tez yola gələcəksən. Sən qızlarını çox istəyirsən, belə fürsəti əldən verməzsən. Ah, nə yaxşı oldu... Amma yaman zarafat elədin bizimlə. Səhərdən onunla görüşmüsən, bizə isə bircə kəlmə də deməmisən.

– İndi isə istədiyin qədər öskürə bilərsən, Kitti, – mister Bennet dedi və arvadının vəcdindən bitab düşmüş halda otaqdan çıxdı.

– Qızlar, görürsünüz nə qədər qayğıkeş atanız var? – qapı örtülən kimi missis Bennet dedi. – Heç bilmirəm, onun borcundan necə çıxa bilərsiniz. Elə mən özüm də. Bizim vəziyyətimizdə hər gün yeni tanışlıq qurmaq o qədər də xoş deyil, amma biz sizin xatirinizə hər şeyə hazı-

rıq. Lidiya, sən qızların ən kiçiyi olsan da, ürəyimə damıb ki, mister Binqli növbəti balda səninlə rəqs eləyəcək.

– Ey, – Lidiya şəstlə dedi, – mən nigaran-zad deyiləm. Nə olsun ki, balacayam?! Əvəzində bacılarımın hamısından hündürəm.

Axşamın qalan hissəsi mister Binqlinin cavab ziyarətinin nə vaxt olacağı ilə bağlı fərziyyələrə, onu nahara dəvət etmək planlarının müzakirəsinə həsr edildi.

## III

Missis Bennetlə qızları nə qədər cəhd göstərsələr də, mister Bennetdən mister Binqli ilə bağlı ətraflı, doğru-dürüst məlumat ala bilmədilər. Hər yola əl atdılar: birbaşa suallar verdilər, yanında qəsdən yanlış ehtimallar səsləndirdilər, ağzını aradılar, xeyri olmadı. Kişi suallardan məharətlə yayındı. Axırda missis Bennetlə qızları ikinci əlin kəşfiyyat materiallarından faydalanmalı oldular: qonşu ledi Lukasdan məlumat aldılar. Onun verdiyi məlumatlar missis Bennetgili çox məmnun etdi. Məlum oldu ki, mister Binqli ser Vilyamda dərin təəssürat oyadıb. Oğlan kifayət qədər cavan, çox yaraşıqlı, mehriban adam idi. Ən əsası: növbəti bala mümkün qədər çox adamla gəlmək niyyətində olduğunu gizlətməmişdi. Bundan yaxşı xəbər ola bilməzdi. Üstəlik, rəqs etməyi xoşlayırdı, rəqs isə vurulmaq şansı, mister Binqlinin qəlbini ovlamaq fürsəti idi.

– Bircə qızlardan birini Nezerfildə gəlin köçürə bilsəydim, – missis Bennet ərinə dedi, – o biriləri də bizə bab olan adamlara ərə versəydim, dünyada heç bir dərdim olmazdı.

Bir neçə gündən sonra mister Binqli mister Bennetin evinə cavab ziyarətinə gəldi və təqribən on dəqiqə onun kitabxanasında oturdu. Ev sahibinin qızlarının gö-

zəlliyi barədə söhbətlər onun da qulağına çatmışdı. Amma onları görmək qismət olmadı: bircə atalarını gördü. Bu mənada qızların bəxti daha çox gətirdi, çünki onlar yuxarı mərtəbənin pəncərəsindən qonağı görə bildilər. O, göy pencək geyinmişdi və qara atla gəlmişdi.

Az sonra qonağa məktub yollayıb onu nahara dəvət etdilər. Missis Bennet zirək evdar xanım kimi, artıq yeməklərin siyahısını da hazırlamışdı, lakin qəsəbənin yeni sakininin cavabı planları alt-üst etdi. Mister Binqli yazmışdı ki, ertəsi gün Londona getməlidir, buna görə də Bennetlərin qonağı olmaq şərəfinə nail ola bilməyəcəyinə görə təəssüflənir və sairə və ilaxır. Missis Bennet dilxor oldu. O, mister Binqlinin Hartfordşirə gəlişindən bu qədər az sonra Londona qayıtmasını başa düşə bilmirdi və düşünürdü ki, yəqin, Binqli bir yerdə qərar tuta bilmir, Nezerfilddə həmişəlik qalmaq fikri yoxdur. Ledi Lukas tezliklə qonşusunun bu nigarançılığını dağıdaraq bildirdi ki, mister Binqli Londona bala daha çox adam gətirmək üçün gedib. Tezliklə xəbər yayıldı ki, mister Binqli bala on iki ledi və yeddi centlmenlə qatılacaq. On iki ledi? Yerli ledilər, əlbəttə, çox məyus oldular, amma ertəsi gün onların bu narahatlığına da su çiləndi: xəbər yayıldı ki, mister Binqli Londondan cəmi altı ledi gətirib, bunlardan beşi onun bacısı, biri isə əmisi qızıdır. Bal salonuna gələndə isə bu dəstə beşcə nəfərdən: mister Binqli, onun iki bacısı, böyük bacısının əri və daha bir centlmendən ibarət idi.

Mister Binqli əsl centlmen duruşu olan yaraşıqlı oğlan idi. Xoş davranışı, sadə, təbii ədaları vardı. Bacıları kübar davranışlı gözəl, incə qadınlar idi. Yeznəsi mister Hörstdə də centlmen görkəmi vardı. Onun dostu mister Darsi yaraşığı, hündür boyu, mütənasib cizgiləri, kübar görkəmi ilə hamının diqqətini cəlb etdi. Gəlişindən beşcə dəqiqə sonra xəbər yayıldı ki, bu adamın illik gə-

liri on min funtdur. Kişilər onun dürüst bir centlmen olduğunu, qadınlar isə mister Binqlidən də yaraşıqlı olduğunu dedilər. Amma yerlilərin bu adama kütləvi heyranlığı məclisin yarısına qədər çəkdi: mister Darsinin davranışı çoxunda belə təsəvvür yaratdı ki, o, təkəbbürlüdür, ətrafındakılara üstdən-aşağı baxır və onu razı salmaq çətin məsələdir. Hətta Derbişirdə böyük bir malikanəyə sahib olması haqqında deyilənlər də onun itirdiyi nüfuzunu bərpa etmədi. Əksəriyyət sonadək hesab etdi ki, mister Darsi öz dostu ilə müqayisədə çox qanıacı və adamayovuşmaz bir insandır.

Mister Binqli tezliklə salondakı bütün mötəbər şəxslərlə tanış oldu. Özünü çəkmir, səmimi aparır, hər kəslə məmnuniyyətlə rəqs edirdi. Məclisin tez dağılmasına görə məyusluğunu gizlətmədi və Nezerfilddə ayrıca bal gecəsi təşkil edəcəyini dedi. Təbii, bu xoş davranışı onun xasiyyəti haqqında çox şey deyirdi. Məclis əhlinə görə onunla dostu arasında yerlə göy qədər fərq var idi. Mister Darsi bircə missis Hörst ilə, bir də miss Binqli ilə rəqs etmişdi. Başqa ledilərlə tanış olmaq təkliflərini rədd etmiş, məclisin sonuna qədər salonda gəzinmiş, sadəcə ara-sıra tanışlarından biri ilə söhbətləşmişdi. Məclis əhlində onun xasiyyəti haqqında müəyyən fikir formalaşmışdı. Hamı özünü dağ başına qoyan bu adamın lovğa, duzsuz tip olduğuna əmin idi və ümid edirdi ki, mister Darsi bir də oralara ayaq basmayacaq. Ona ən çox nifrət bəsləyən isə missis Bennet oldu. Qadın onsuz da əksəriyyətin Darsi ilə bağlı ümumi rəyinə şərik idi. Bir yandan da qonağın missis Bennetin qızlarından birinə etinasızlıqla yanaşması qadını lap cin atına mindirmişdi.

Centlmen çatmadığından Elizabet Bennet düz iki rəqsi ötürmək məcburiyyətində qalmışdı. Bu vaxt ərzində mister Darsinin o qədər yaxınlığında dayanmışdı ki, mister Binqli ilə onun söhbətini istər-istəməz eşitmişdi. Mis-

ter Binqli rəqsdən bir neçə dəqiqəlik ayrılıb dostuna yaxınlaşmışdı ki, onu rəqs meydanına çağırsın.

– Gəl, Darsi, – o demişdi, – sən rəqs eləməlisən. Niyə qıraqda dayanıb gözünü döyürsən? Ondansa gir ortaya, oyna.

– Yox, mənlik deyil. Özün bilirsən ki, tərəf-müqabilim tanıdığım adam olmadısa, oynaya bilmirəm. Burda isə elə bir imkan yoxdu. Sənin bacılarının tərəf-müqabili var, mən isə bu salonda elə bir qız görmürəm ki, onunla rəqs eləmək mənim üçün əzab olmasın.

– Mən sənin qədər vasvası deyiləm, – mister Binqli uca səslə demişdi. – Vicdan haqqı, heç bu qədər gözəl qızı bir yerdə görməmişdim. Bir neçəsinin gözəlliyi isə lap göz qamaşdırır.

– Bu salonda yeganə gözəl qızla sən rəqs eləyirsən, – mister Darsi Bennetlərin ən böyük qızına baxıb demişdi.

– Oh! Hə, mən indiyə kimi belə gözəl qızla tanış olmamışam! Amma onun bacılarından biri elə burda, düz səndən arxada oturub. Özü də çox gözəl qızdı. Dayan, qoy partnyoruma deyim, sizi tanış eləsin.

– Hansını deyirsən? – mister Darsi soruşmuş və qanrılıb Elizabetə baxmışdı. Baxışları toqquşan kimi üzünü çevirib etinasızlıqla demişdi: – Babat qızdı, amma məni hayıl-mayıl eləyəsi qədər də yox. Həm də başqa centlmenlərin diqqətindən kənarda qalan ledilərə təskinlik verməyə halım yoxdu. Yaxşısı budu, partnyorunun yanına qayıdasan, onun gülüşünə tamaşa eləməkdən zövq alasan. Burda mənimlə əbəs yerə vaxt itirirsən.

Mister Binqli dostunun məsləhəti ilə rəqs meydanına qayıtmışdı. Elizabetin, əlbəttə, ondan heç xoşu gəlməmişdi. Amma kefini pozmamışdı, hətta eşitdiklərini rəfiqələrinə də danışmışdı. Çünki Elizabet təbiətcə şən qız idi, hətta öz başına gələnlərə də gülməyi bacarırdı.